*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

18 fevral 2022-ci il
№07 (8965)

www.muallim.edu.az
muallim@edu.gov.az



# Müəllimlərin işə qəbulu müsabiqəsində yeniliklər

## Növbəti dəyişikliklər rəy və sorğular əsasında təkmilləşdirmə məqsədilə aparılıb

**10 ilə yaxındır ki, mərkəzləşdirilmiş qaydada keçirilən müəllimlərin işə qəbulu müsabiqəsində dəyişikliklər var. Təkmilləşdirmə məqsədilə aparılan növbəti dəyişikliklər rəy və sorğular əsasındadır və artıq qüvvəyə minib. Tətbiq ediləcək yeni qaydalarla bağlı Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov və İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov keçirilən onlayn brifinqdə məlumat veriblər. Bildirilib ki, yeniliklər müəllimlərin işə qəbulu ilə yanaşı, yerdəyişməsi qaydalarında da dəyişikliyə səbəb olub. Beləliklə, bu il müəllimlərin qatılacaqları müsabiqələrdə qarşılaşacaqları yeniliklərə nəzər salaq.**

➪Ardı səh.2

## BU SAYIMIZDA

### Azərbaycanın 2 universiteti dünya reytinqində

Böyük Britaniyanın “Times Higher Education” nəşri dünyanın ən gənc universitetlərinin 2022-ci il üzrə reytinq siyahısını (Young University Rankings 2022) yayımlayıb. Tədqiqat dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinin qiymətləndirildiyi qlobal “World University Rankings” sıralamasında olduğu kimi, 13 səmərəlilik göstəricisinə əsaslanır. Beynəlxalq reytinqdə Azərbaycanı iki ali təhsil müəssisəsi — Xəzər Universiteti və Qərbi Kaspi Universiteti təmsil edir.

➪səh.3

### Nazirliyin təşəbbüsü ilə IT kurslarına başlanılıb




Təhsil Nazirliyinin həyata keçirdiyi layihə çərçivəsində Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) IT kurslarına başlanılıb. IT kursları (bootcamp) 2021-2022-ci tədris ilinin yaz semestrini əhatə edəcək. Kursda ADNSU-nun texniki ixtisaslarında bakalavriat səviyyəsi üzrə təhsil alan III və IV kurs tələbələri iştirak edirlər. Kurslarda veb-tərtibatçılıq və sistem inzibatçılığı üzrə tədris verilir və 300 tələbəni əhatə edir.

➪səh.3

### Xoşbəxt məktəblər




21 fevral saat 21:00-da “Yeni çağırışlar” onlayn müzakirə proqramının növbəti buraxılışı yayımlanacaq. Proqramın budəfəki qonağı tanınmış türkiyəli psixoloq, Baltaş Qrupunun rəhbəri, professor Acar Baltaşdır. Qabaqcıl elm adamı Acar Baltaş ilə xoşbəxt məktəblər barədə danışılacaq. Təhsil Nazirliyinin dəstəyi və “T-Network” platformasının təşkilatçılığı ilə davam edən proqram Təhsil Nazirliyinin rəsmi “Facebook” səhifəsi üzərindən canlı yayımlanacaq.

➪səh.4



## Öyrənmək, özünü tanıtmaq, istirahət məkanı

Onlar tələbədirlər. Ayrı-ayrı ali məktəblərdə təhsil alsalar da seçdikləri ixtisas sahələri eynidir. Və eyni ixtisas sahibləri olan gəncləri “Qış düşərgəsi” bir araya gətirib. Özü də Azərbaycanın səfalı guşələrindən birində -əsrarəngiz təbiətin qış rəngləri ilə əhatə olunmuş Qubada...

Təhsil Nazirliyinin təşəbbüsü və Təhsil İnstitutunun təşkilatçılığı ilə təşkil olunan “Qış düşərgəsi” sözün yaxşı mənasında gənclərimizə maraqlı, xoş hisslərlə xatırlanacaq unudulmayan tələbəlik həyatı yaşadıb.

Düşərgənin rəhbəri olmuş Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Tural Alışov bizimlə söhbətində belə bir tədbirin təşkilinin tələbələrimiz üçün ixtisas üzrə biliklərini artırmaqla, öyrənməklə yanaşı, asudə vaxtlarının da daha səmərəli keçirmələri baxımından unikal bir fürsət olduğunu deyir: “Düşərgə Təhsil İnstitutunun sırf riyaziyyat sahəsi üzrə ilk tədbiri idi. Cari ilin 5-13 fevral tarixlərini əhatə edən “Qış düşərgəsi”nin sakinləri ali təhsil müəssisələrinin riyaziyyat, eləcə də texniki ixtisaslarında bakalavriat səviyyəsi üzrə təhsil alan III və IV kurs tələbələri, həmçinin magistratura səviyyəsi üzrə təhsil alanlar arasından seçilmişdi.

➪Ardı səh.8

## "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 579; 2004, № 9, maddə 684; 2006, № 12, maddə 1056; 2008, № 9, maddə 796; 2013, № 9, maddə 1049; 2018, № 5, maddə 935; 2019, № 2, maddə 227) 1-ci hissəsində "210 (iki yüz on)" sözləri "250 (iki yüz əlli)" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərman 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 fevral 2022-ci il*



# Müəllimlərin işə qəbulu müsabiqəsində yeniliklər

⇦ Əvvəli səh.1

### Test imtahanlarının vaxtı da, toplanıla biləcək mümkün balı da artdı

Test imtahanı mərhələsində sualların cavablandırılması üçün verilən 90 dəqiqə 120 dəqiqəyə qədər artırılıb. Bunun namizədlər üçün əlverişli şəraitin yaradılmasına səbəb olacağı düşünülür. Çünki müəllimliyə namizədlər bu müddət ərzində yenə ənənəvi şəkildə 60 suala cavab verəcək. Amma cavabların qiymətləndirilməsi fərqli olacaq. Belə ki, namizədlər əvvəlki kimi 60 yox, 100 bal toplayacaqlar. İxtisas suallarına görə hər bir fənn üzrə düzgün cavab 2 bal, metodika üzrə isə 1 bal qiymətləndiriləcək. Yeniliklər arasında müəllimliyə namizədlər üçün digər xəbər odur ki, səhv cavablandırdıqları 4 test tapşırığına görə 1 doğru cavab silinəcək. Eşqi Bağırov bu dəyişikliyin namizədlərin eyni nəticə toplamasının qarşısının alınması, daha fərqli bölgünün aparılması, vakansiya seçimi mərhələsində daha obyektiv və ədalətli mexanizmin tətbiqi məqsədi ilə izah edib. Onun fikrincə, yeni mexanizm həm seçimdə, həm yerləşdirmədə obyektivliyi təmin edəcək.

**Növbəti dəyişikliklər rəy və sorğular əsasında təkmilləşdirmə məqsədilə aparılıb**



### Vakansiya seçimində öncəlik şəhid ailələrindən olanlara verilir

2021-ci ildə keçirilən müsabiqədən sonra müəllimlərin işə qəbulu üzrə test imtahanlarının bir neçə mərhələdə təşkili ilə bağlı müzakirələr isə reallaşmayıb. Ona görə də bu il test imtahanları yox, vakansiya seçimi iki mərhələdə aparılacaq. İlk mərhələdə MİQ üzrə müsabiqənin minimum tələbini ödəyən şəhid ailələrinin üzvlərinə seçim şansı yaradılacaq. Daha sonra digər namizədlər üçün vakansiya seçimi açıq elan ediləcək.

Ucqar kənd yerlərində çalışan müəllimlərin balının hesablanmasında bu ildən etibarən dəyişikliklər olacaq. Belə ki, həmin ərazilərdə 3 ildən çox müddətdə fasiləsiz işləyən müəllimlərin nəticələrində ballar 1.5 əmsalına, 5 ildən çox işləyən müəllimlərin topladıqları nəticələr isə 1.1 əmsalına vurularaq hesablanacaq. Bu da onların fəaliyyətini stimullaşdırmaq, kənd məktəblərində pedaqoji kadr təminatını çevik və sistemli şəkildə reallaşdırmaq məqsədi daşıyır.

Xatırladaq ki, əmsallaşdırma daha bir kateqoriyada - hərbçi ailələrinə əvvəlki illərdən tətbiq edilir və həmin güzəştlər bundan sonra da qüvvədə qalacaq. Belə ki, Təhsil Nazirliyi hərbi qulluqçuların ailə üzvlərinin iş yerlərinin onların xidməti yerlərinə uyğun dəyişdirilməsinə həssas yanaşaraq hərbçi ailələrindən olanların nəticələrinə müvafiq əmsallar tətbiq edir.

Müsabiqəyə çıxarılacaq vakant yerlərin sayına gəlincə, bu il də rekord sayda vakansiyanın olacağı gözlənilir. E.Bağırovun sözlərinə görə, ötən il 8000-ə yaxın vakansiya elan edildi. Tədris ili müddətində də əlavə 5000 yer ayrıldı. Ümumilikdə 13 minə yaxın vakansiya elan olundu. Builki MİQ müsabiqəsinə də eyni sayda vakant yerin çıxarılacağı gözlənilir: "Demək olar ki, eyni sayda vakant yer builki MİQ müsabiqəsində də elan ediləcək. Müsabiqənin keçirilməsi prosesi iyulda başlayıb avqusta kimi davam edir. Tədris ilinin əvvəlinə kimi müsabiqə başa çatmalı və bütün vakant yerlər tutulmalıdır".

### Yerdəyişmə istəyinə 3 il məhdudiyyəti

Bu il üçün də müəllimlərin yerdəyişməsi ilə bağlı prosesə iyun ayından başlanılması nəzərdə tutulur. Müsabiqənin keçirilmə vaxtında bir dəyişiklik olmasa da, yerdəyişmə şərtlərində ciddi yenilik var. Bu yeniliyin son illərin təhlillərinin nəticələrinə əsaslandığını bildirən E.Bağırovun sözlərinə görə, işə qəbul olunan kadrların mütəmadi olaraq yerdəyişmə və yenidən işə qəbul üçün müraciət etdikləri müşahidə olunub. Bu da təhsilin fasiləsizliyinə mane olur və yerlərdə narazılıqlara gətitib çıxarır. Bunu nəzərə alaraq aparılan dəyişiklik nəticəsində işə qəbul olunanların ilk 3 il ərzində yerdəyişməsi məhdudlaşdırılıb.

Əvəzində isə stimullaşdırıcı tədbir olaraq 3 il müddətində fasiləsiz işləyən müəllimlərin nəticələri yerdəyişmə zamanı 1.05, 5 ildən çox işləyən müəllimlərin balı isə 1,1 əmsalına vurularaq hesablanacaq.

Yerdəyişmə müsabiqəsində də ilk olaraq daimi əsaslarla işləyən şəhid ailələri üzvlərinə öncəlik veriləcək. Bu dəfə də vakansiya mərhələsinə ilk qatılan onlar olacaq. Növbəti mərhələdə digər kateqoriyadan olan namizədlər iştirak edə biləcəklər.

Başqa bir dəyişiklik Bakı, Sumqayıt və Abşeron üzrə müəllimlərin yerdəyişməsi ilə bağlıdır. Belə ki, bu ərazidə işə qəbul və yerdəyişmə zamanı yüksək rəqabət, vakant yerlərin sayı, müəllim sıxlığı və digər məsələləri nəzərə alaraq, yerdəyişmədə ədaləti təmin etmək üçün prosesin müəllimlərin işə qəbulu müsabiqəsi vasitəsilə həyata keçirilməsinə qərar verilib. Digər bölgələrdə isə yerdəyişmə açıq şəkildə elan ediləcək və heç bir məhdudiyyət olmayacaq.

### Daimiləşmə müsabiqəsi bu il sonuncu dəfə keçirilir

Daha bir yeni xəbər ümumtəhsil müəssisələrində müddətli əmək müqaviləsi əsasında işləyən müəllimlərədir. Belə ki, müddətli əmək müqaviləsi ilə çalışanlarla müddətsiz əmək müqaviləsinin bağlanılması məqsədilə keçirilən daimiləşmə müsabiqəsi gələn ildən olmayacaq. Müddətli müqavilə ilə tutulan yerlər tədris ilinin sonunda vakansiya olaraq müəllimlərin işə qəbulu müsabiqəsinə çıxarılacaq və namizədlərin seçiminə buraxılacaq. Həmin yer uğrunda mübarizəyə müddətli müqavilə ilə işləmiş namizədlər digər namizədlərlə birlikdə qatıla biləcəklər.

Sonunci daimiləşmə müsabiqəsinin isə yaxın aylarda keçirilməsi planlaşdırılır. Həmin müsabiqəyə 2022-ci il yanvarın 31-dək, yəni, 2021-2022-ci tədris ilinin əvvəlindən bəri müddətli müqavilə əsasında işə başlayanlar qatılacaqlar.

**Ruhiyyə DAŞSALAHLI**

## Rusiya "MGIMO" 2022-2023-cü tədris ili üçün tələbə qəbulu elan edir

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universiteti ("MGIMO") 2022-2023-cü tədris ili üzrə Azərbaycan vətəndaşları üçün tələbə qəbulu elan edib. Qəbul bakalavriat təhsil səviyyəsi üzrə aparılır.

Müsabiqədə iştirak etmək istəyən abituriyentlər 16-24 fevral 2022-ci il tarixlərində tələb olunan sənədləri *info@dim.gov.az* elektron poçt ünvanına göndərərək qeydiyyatdan keçməlidirlər.

Müsabiqə mərhələsi, tələb olunan sənədlər və digər məsələlərlə bağlı ətraflı məlumatı keçiddən *(https://dim.gov.az/news/7982/)* əldə etməyiniz mümkündür.

## İsveç Krallığının 2022-2023-cü tədris ili üçün təqaüd proqramı

İsveç Krallığı 2022-2023-cü tədris ili üçün müxtəlif ixtisaslar üzrə istedadlı gənclərin İsveç Krallığında magistratura səviyyəsində təhsili məqsədilə "İsveç İnstitutu Qlobal Peşəkarlar" adlı təqaüd proqramına sənəd qəbulu elan edib.

Müraciət üçün son tarix 28 fevral 2022-ci il nəzərdə tutulub.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(https://htp.edu.az/ uploads/fileuploads/2022/02/adbf688a6b904314b42c6d94f3679949.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

## İslam İnkişaf Bankından təqaüd imkanı

İslam İnkişaf Bankı 2022-2023-cü tədris ilində müxtəlif təhsil səviyyələri üzrə təhsil üçün təqaüd imkanları elan edir.

Təqaüd proqramına müraciət üçün son tarix 28 fevral 2022-ci il nəzərdə tutulub.

Ətraflı məlumatı elan *(https://htp.edu.az/uploads/fileuploads/2022/02/66c6bf76d2d24ce4acbde34325b9b451.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

## Yaponiya və Dünya Bankı növbəti tədris ili üzrə birgə təqaüd proqramı elan edir

Yaponiya və Dünya Bankı tərəfindən 2022-2023-cü tədris ili üçün Amerika, Avropa, Afrika, Okeaniya və Yaponiyanın 26 ali təhsil müəssisəsində müxtəlif ixtisaslar üzrə istedadlı gənclərin magistratura səviyyəsində təhsili məqsədilə birgə həyata keçirilən təqaüd proqramına sənəd qəbulu elan edilib.

Müraciət üçün son tarixlər 28 fevral və 27 may 2022-ci il nəzərdə tutulub.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(https://htp.edu.az/ uploads/fileuploads/2022/02/61f4d0792f8b4bce8effdf532a07f16b.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# Təhsil naziri səfirlə görüşüb

Fevralın 14-də təhsil naziri Emin Əmrullayev Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi ilə görüşüb.

Görüş zamanı "Yaponiya-Azərbaycan Dostluq İli" çərçivəsində Təhsil Nazirliyi ilə Yaponiya arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə edilib.

# "Təhsilə ictimai baxış"

## Məktəb-valideyn tərəfdaşlığı müzakirə ediləcək

Fevralın 18-də Təhsil Nazirliyi yanında İctimai Şuranın və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə "Təhsilə ictimai baxış" silsiləsindən növbəti müzakirə təşkil olunacaq.

"Məktəb-valideyn tərəfdaşlığı" mövzusuna həsr olunacaq müzakirənin əsas məqsədi bu istiqamətdə mövcud vəziyyəti öyrənmək, məktəb və valideyn arasında tərəfdaşlığın səmərəli qurulması və inkişaf etdirilməsi yönündə maraqlı tərəflərin fikirləri ilə tanış olmaq, mövcud tərəfdaşlığın modelinin yeni formalarını hazırlamaqdır.

Müzakirədə Təhsil Nazirliyinin əməkdaşları, nazirlik yanında İctimai Şuranın üzvləri, təhsil ekspertləri, məktəb direktorları, valideyn və müəllimlər, o cümlədən QHT nümayəndələri, beynəlxalq təşkilatların əməkdaşlarının iştirakı nəzərdə tutulur.

Müzakirə zamanı nazirlik yanında İctimai Şura və "T-Network" tərəfindən mövzu ilə bağlı valideynlər arasında aparılmış sorğunun nəticələri də təqdim olunacaq. Həmçinin, Türkiyənin TED Universitetinin təhsil fakültəsinin dekanı Yüksel Kavaz Türkiyə təcrübəsi barədə təqdimatla çıxış edəcək.

Qeyd edək ki, "Təhsilə ictimai baxış" silsilə müzakirələrin təşkilində məqsəd bütün maraqlı tərəflərlə səmərəli dialoq qurmaq və mövcud vəziyyəti yaxşılaşdırmaq üçün reallıqları müzakirə etmək, ictimai rəyi öyrənmək və təhsildə inkişafın mümkün istiqamətlərini nəzərdən keçirməkdir.

# Təhsil Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi arasında əməkdaşlığa dair Niyyət Protokolu imzalanıb

Fevralın 17-də Təhsil Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi arasında Niyyət Protokolunun imzalanma mərasimi keçirilib.






Niyyət Protokolu təhsil naziri Emin Əmrullayev və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev tərəfindən imzalanıb.

Protokolun imzalanmasında əsas məqsəd ümumi təhsil müəssisələri üçün rəqəmsallaşma, innovasiyalar və təhsilin inkişafına töhfə verəcək məsələlərə dair əməkdaşlığın həyata keçirilməsidir.

Bu çərçivədə ilk olaraq Sumqayıt şəhərində yerləşən "İstedad" liseyinin nəzdində "İnnovasiyalar" mərkəzi yaradılacaq. Mərkəzin yaradılması riyaziyyat, informatika, robotiks sahəsində istedadlı şagirdlərin aşkar edilməsi, onların potensialının inkişaf etdirilməsi, informasiya texnologiyaları üzrə bacarıqlarının, kodlaşdırma qabiliyyətlərinin artırılması, eləcə də şagirdlərin yerli və beynəlxalq olimpiadalara, müsabiqələrə hazırlanmasının təşkili məqsədi daşıyır.

Mərasimdə çıxış edən təhsil naziri Emin Əmrullayev niyyət protokolunun imzalanmasını yüksək qiymətləndirib. Təhsil naziri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən irəli sürülən bu təşəbbüsün istedadlı şagirdlərin bacarıqlarının aşkarlanaraq inkişaf etdirilməsi, innovativ təhsil layihələrinin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, cənab Prezident İlham Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən ölkəmizdə güclü insan kapitalı və innovasiya məkanı yaradılmalıdır. Buna yalnız dəqiq elmlər, texnologiyalar, informasiya texnologiyaları üzrə bilikləri artırmaqla, bu sahədə mütəxəssislər yetişdirməklə nail ola bilərik.

İmzalanma mərasimindən sonra nazirlər liseydə yaradılmış şəraitlə tanış olub, şagirdlərlə görüşərək onları maraqlandıran suallar ətrafında müzakirələr aparıblar.

# Azərbaycanın 2 universiteti dünya reytinqində

Böyük Britaniyanın "Times Higher Education" nəşri dünyanın ən gənc universitetlərinin 2022-ci il üzrə reytinq siyahısını (Young University Rankings 2022) yayımlayıb. Tədqiqat dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinin qiymətləndirildiyi qlobal "World University Rankings" sıralamasında olduğu kimi, 13 səmərəlilik göstəricisinə əsaslanır. Beynəlxalq reytinqdə Azərbaycanı iki ali təhsil müəssisəsi — Xəzər Universiteti və Qərbi Kaspi Universiteti təmsil edir.

2022-ci ilin reytinqi 2021-ci ildəki 475 ilə müqayisədə 539 universiteti əhatə edir. Daha 251 müəssisə "reporter" statusu ilə göstərilib, bu isə o deməkdir ki, onlar öz məlumatlarını təqdim ediblər, lakin reytinqə düşmək üçün THE-nin meyarlarına uyğun gəlmirlər.

Fransanın əsası 2010-cu ildə qoyulmuş Paris Elm və Ədəbiyyat Universiteti (PSL) bu il ilk dəfə olaraq dünyanın ən yaxşı gənc universiteti seçilib. Ötən ilin lideri olan Sinqapurun Nanyanq Texnologiya Universiteti bu il ikinci yerə düşüb. Honkonqun üç universiteti top-10-luqda yer alıb. Fransa isə top-20-likdə ən çox universitetlə (5) təmsil olunan ölkədir. Niderlandın Erasmus Roterdam Universiteti reytinqə bu il daxil olan yeni ali məktəblər arasında birinci olmaqla ümumi reytinqdə 4-cü yerdədir.

Hindistan və Türkiyə Böyük Britaniyanı qabaqlayıb və hər biri reytinqdə ən çox (40) universitetlə təmsil olunan ölkələrdir. Böyük Britaniya İranla üçüncü yeri bölüşür (hər ikisi 37 universitetlə təmsil olunur).

Universitetlər tədris, tədqiqat, biliklərin ötürülməsi və beynəlxalq perspektivləri üzrə qiymətləndirilib. Ötən illə (68 ölkə) müqayisədə builki reytinq 74 ölkəni əhatə edir.

Qeyd edək ki, reytinqə son 50 ildə təsis olunmuş ali təhsil müəssisələri daxildir.

**Oruc MUSTAFAYEV**

# Bolonya Prosesi üzrə İdarəetmə Qrupunun görüşü keçirilib




Bakıda Bolonya Prosesi üzrə İdarəetmə Qrupunun görüşü (BFUG Board Meeting) keçirilib.

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsi tərəfindən onlayn təşkil edilən beynəlxalq səviyyəli tədbir təhsil nazirinin müşaviri Nicat Məmmədlinin moderatorluğu ilə aparılıb.

Görüşdə 48 Avropa ölkəsinin və 8 Avropa təşkilatının (Avropa Komissiyası, YUNESKO, Avropa Universitetlər Assosiasiyası, Avropa Tələbələr Assosiasiyası və digər) təmsilçiləri və Təhsil Nazirliyinin nümayəndələri iştirak edib.

Tədbirdə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədri Ülkər Səttarova açılış nitqi ilə çıxış edib.

Bildirilib ki, Azərbaycan artıq ikinci dəfədir ki "BFUG Board Meeting"ə evsahibliyi edir.

Azərbaycan BFUG-yə qoşulduğu ildən etibarən BFUG-nin Kvalifikasiyalar Çərçivəsi üzrə Avropa Ali Təhsil Məkanı Şəbəkəsinin, Kvalifikasiyalar Çərçivəsi və Kredit Sistemi, Kvalifikasiyaların Tanınması və Keyfiyyətin Təminatı qruplarının üzvü olub.

Respublikamızın BFUG-nin sadalanan struktur bölmələrində iştirakı təhsil sistemi inkişaf etmiş ölkələrin qabaqcıl təcrübələrindən yararlanmağa köməklik edib. Belə ki, Azərbaycanın BFUG ilə əməkdaşlığı aşağıdakılara nail olmağımıza xidmət edib:

- Üç səviyyəli ali təhsil sistemi;
- Avropa Kredit Transfer Sisteminin tətbiqi;
- Avropa standartlarına və qaydalarına uyğun olaraq yeni keyfiyyət təminatı sisteminin qurulması;
- Avropa Kvalifikasiyalar Çərçivəsinə uyğun Milli Kvalifikasiyalar Çərçivəsinin yaradılması;
- Tanınma qaydalarının sadələşdirilməsi və yenilənməsi;
- Əmək bazarı üçün diploma əlavənin təsis edilməsi;
- Universitet-sənaye əməkdaşlığının möhkəmləndirilməsi və s.

Sadalanan islahatlarla yanaşı, tədris prosesində tələbəyönümlü yanaşmanın tətbiqi, təhsil proqramlarının kompetensiya yönümlü hazırlanması, mobillik və ikili diplom proqramlarının həyata keçirilməsi, keyfiyyəti təmin edən yeni strukturun yaradılması, tanınma prosesinin asanlaşdırılması üzrə kifayət qədər işlər görülüb.

Qeyd edək ki, Azərbaycan 2005-ci ildən Bolonya prosesinə qoşulub və elə həmin ildən etibarən Bolonya Prosesi üzrə İşçi Qrupunun (Bologna Follow-Up Group — BFUG) üzvüdür.

BFUG Avropa Ali Təhsil Məkanına (European Higher Education Area — EHEA) üzv olan ölkələrdə Bolonya prosesini dəstəkləyən idarəetmə strukturudur.

# Nazirliyin təşəbbüsü ilə IT kurslarına başlanılıb




Təhsil Nazirliyinin həyata keçirdiyi layihə çərçivəsində Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) IT kurslarına başlanılıb.

IT kursları (bootcamp) 2021-2022-ci tədris ilinin yaz semestrini əhatə edəcək. Kursda ADNSU-nun texniki ixtisaslarında bakalavriat səviyyəsi üzrə təhsil alan III və IV kurs tələbələri iştirak edirlər.

Kurslarda veb-tərtibatçılıq və sistem inzibatçılığı üzrə tədris verilir və 300 tələbəni əhatə edir.

Qeyd edək ki, layihənin məqsədi tələbələrin "junior" səviyyədə mütəxəssis kimi yetişdirilməsidir.

# SABAH - uğurlu karyeranın yolu



## VI Karyera Qış Məktəbinin açılış mərasimi keçirilib

Fevralın 12-də Şamaxıda SABAH VI Karyera Qış Məktəbinin açılışı baş tutub.

Açılış mərasimində iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov SABAH VI Karyera Qış Məktəbinin iştirakçılarını salamlayaraq gənc məzunların uğurlu karyera qurması üçün yaradılan şəxsi və peşəkar inkişaf imkanları barədə ətraflı məlumat verib. Qış məktəbinin əhəmiyyətini vurğulayan nazir müavini müasir dövrün peşələrindən, uğurlu karyera qurmağın yollarından, karyera planlaşdırılmasının, əsas həyat hədəflərinin müəyyən edilməsinin vacibliyindən, həyatın mənasını düzgün dərk etməyin əhəmiyyətindən danışıb.

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin müstəqil ölkəmizin inkişafında vacib yer tutduğunu qeyd edən Firudin Qurbanov onlara fəaliyyətlərində yeni nailiyyətlər arzulayıb.

Görüş iştirakçılarının nəzərinə çatdırılıb ki, bu il keçirilən SABAH VI Karyera Qış Məktəbində 68 tələbə iştirak edir. Fevralın 14-dək davam edəcək tədbir çərçivəsində karyera quruculuğunun nəzəri, praktiki və aktual mövzuları üzrə təlimlər keçiriləcək. Qış məktəbində tələbələrə əlavə olaraq agile learning, müasir biznesin əsasları və biznesmenin vergi münasibətləri haqqında təlimlər də keçirilib.

Qış Məktəbi IV kursda təhsil alan SABAH tələbələrinin işədüzəlmə, akademik fəaliyyət, startap və sahibkarlıq sahələri üzrə bilik və bacarıqlarının artırılmasına xidmət edir. Hər il olduğu kimi, bu il də bir çox tərəfdaş şirkətlərin ("Azercell", "Kapital Bank", "GoldenPay" və s.) fərdi təlimçiləri Qış məktəbinin təşkilinə yaxından dəstək göstəriblər.

Karyera Qış Məktəbi ilə yanaşı SABAH Mərkəzinin əməkdaşlarının peşəkar inkişafına dəstək məqsədilə "Yeni standartlara uyğun vahid SABAH syllabusunun yaradılmasına doğru", "Süni intellekt texnologiyalarının təhsildə tətbiq perespektivləri", "Yeni əsrdə müasir universitet dizaynı" və "Səmərəli idarəçilik və korporativ düşüncə" mövzuları ətrafında təlimlər təşkil olunub.



Qeyd edək ki, SABAH qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilindən etibarən dövlət ali təhsil müəssisələrində tədrisin keyfiyyətinin yüksəldilməsi, yenilikçi mühitin yaradılması məqsədilə formalaşdırılmış müxtəlif ixtisaslar üzrə savadlı, bacarıqlı və hazırlıqlı tələbələrdən ibarət qruplardır. Bu qruplar hazırda 11 ali təhsil müəssisəsində 39 ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir.

# BDU "Teknofest Azərbaycan" festivalına 25 layihə ilə qatılacaq

Bakı Dövlət Universitetində (BDU) "Teknofest Azərbaycan" aerokosmik və texnologiya festivalına universitetin Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən 25 layihənin təqdim olunması nəzərdə tutulur. Onlardan 6 layihə 3D çap texnologiyaları, 6 layihə PUA və model peyk (uçuş texnologiyaları), 5 layihə yaşıl texnologiya, 3 layihə aqrar texnologiya, 1 layihə robototexnika, 4 layihə isə sosialyönümlü texnologiya kateqoriyası üzrə təqdim ediləcək.

Həmçinin, BDU tələbələri fərdi qaydada da festivala layihə təqdim edə bilərlər.

Qeyd edək ki, "Teknofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Tədbir "Türkiyə Texnologiya Komandası" — T3 Fondu və Türkiyənin Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur.

Azərbaycan ilk dəfə 2021-ci ildə "Teknofest"də iştirak edib. "Teknofest" aerokosmik və texnologiya festivalının Türkiyədən kənarda ilk dəfə Azərbaycanda keçirilməsi iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.

"Teknofest Azərbaycan" tədbirinin 2022-ci ilin 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində keçirilməsi planlaşdırılır. Festivalın təşkilatçıları "Türkiyə Texnologiya Komandası" - T3 Fondu, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyidir.

"Teknofest Azərbaycan" çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, "Smart Qarabağ" Hakatonu, "Take Off" Azərbaycan Startap Sammiti və "Rocket League" video oyunu üzrə Avropa Kiber İdman Kuboku təşkil olunacaq. Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototiplərin və STEAM layihələrin nümayiş olunması, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi nəzərdə tutulur.

# Kibertəhlükəsizlik üzrə milli yarışın qalibləri mükafatlandırılıb




## Gənclərimiz beynəlxalq bacarıq yarışlarında iştirak edəcəklər

"WorldSkills Shanghai 2022" beynəlxalq bacarıq yarışlarında ölkəmizi təmsil edəcək gənclərin müəyyən edilməsi üçün keçirilən kibertəhlükəsizlik üzrə milli yarışın qaliblərinin mükafatlandırılması mərasimi baş tutub.

Təbdirdə təhsil nazirinin müavini İdris İsayev iştirak edib. Nazir müavini çıxışında kibertəhlükəsizliyin əhəmiyyəti haqqında söz açıb, bu sahənin xüsusi diqqət mərkəzində olduğunu bildirib.

Daha sonra yarışın qalibləri - Sənan Nəcəfov, Vüsalə Ələkbərova, Xalid İsmayıllı, Məhəmmədcan Məhəmmədcanov, İsgəndər İsgəndərov və Mikayıl Mustafayev təltif edilib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulanıb.

Qeyd edək ki, qalib iştirakçılar kibertəhlükəsizlik üzrə "WorldSkills Azerbaijan" platformasının yığma komandasına daxil olaraq "WorldSkills Shanghai 2022" beynəlxalq yarışın hazırlıq prosesinə cəlb olunacaqlar. Hazırlıq prosesinin sonunda iki iştirakçı cari ilin 12-17 oktyabr tarixlərində "WorldSkills Shanghai 2022" beynəlxalq bacarıq yarışlarında Azərbaycanı təmsil edəcək.

Müsabiqə Peşə Təhsili üzrə Dövlət Agentliyi və "WorldSkills Azerbaijan" platformasının əməkdaşlığı çərçivəsində həyata keçirilir.

"WorldSkills Azerbaijan" peşəkarlığın və bacarıqların inkişafı üçün milli platformadır. Dünyada müxtəlif bacarıq istiqamətləri üzrə olimpiya yarışlarının təşkilatçısı kimi tanınan "WorldSkills" hərəkatı əmək bazarının tələblərinə və qlobal standartlara uyğun peşəkarlar yetişdirmək, həmin standartları təhsil sisteminə inteqrasiya etmək imkanı yaradır.

# Xoşbəxt məktəblər




## "Yeni çağırışlar"da tanınmış türkiyəli psixoloqla mövzu haqqında danışılacaq

21 fevral saat 21:00-da "Yeni çağırışlar" onlayn müzakirə proqramının növbəti buraxılışı yayımlanacaq. Proqramın budəfəki qonağı tanınmış türkiyəli psixoloq, Baltaş Qrupunun rəhbəri, professor Acar Baltaşdır. Qabaqcıl elm adamı Acar Baltaş ilə xoşbəxt məktəblər barədə danışılacaq.

Professor Cərrahpaşa Universitetində doktorantura təhsili zamanı Türkiyədə ilk dəfə olaraq neyro-psixologiya mövzusunu araşdırıb, "Beynin yüksək funksiyaları" haqqında tədqiqatlar aparıb. Acar Baltaş 1983-cü ildən bu günə kimi təşkilati psixologiya mövzusunda təcrübəsini iş həyatının ehtiyacları ilə uzlaşdıraraq liderlik və komanda işi mövzusunda seminarlar verir, kitablar yazır və insan resursları sahəsində xidmət göstərən Baltaş Qrupunu idarə edir.

"Həyatı dolu-dolu yaşamaq", "Xəyalını yorğanına görə uzat", "Türk mədəniyyətində idarəçilik", "Yeni minillikdə iş uğurunun 12 açarı", "Bir səyahət olaraq liderlik" və digər kitabların müəllifidir.

Qeyd edək ki, Təhsil Nazirliyinin dəstəyi və "T-Network" platformasının təşkilatçılığı ilə davam edən proqram Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən canlı yayımlanacaq.

**Hazırda müasirləşmə mərhələsində olan Mingəçevir Dövlət Universitetinin (MDU) potensialının gücləndirilməsi məqsədilə 2021/2022-ci tədris ilinin payız semestri müddətində də paytaxtın qabaqcıl universitetləri iləfəal və səmərəli əməkdaşlığa xüsusi önəm verilmişdir. Tərəfdaş ali təhsil müəssisələrindən olan Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə əlaqələrin inkişafı diqqət mərkəzində saxlanılmış və bu istiqamətdə əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.**



# MDU müasirləşmə mərhələsində: yeni hədəflər və əsas nailiyyətlər

**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

## 2021/2022-ci tədris ilinin payız semestri: faydalı tərəfdaşlıqlar və beynəlxalq əməkdaşlıq

**(Əvvəli qəzetin 14 yanvar və 4 fevral tarixli saylarında)**

*Bakı Dövlət Universiteti (BDU)*

Azərbaycanın qabaqcıl və qocaman universitetlərindən biri olan BDU ilə MDU arasında əməkdaşlıq hesabat dövründə hər iki ali təhsil müəssisəsinin çoxşaxəli və çoxsaylı birgə fəaliyyətləri ilə yadda qalmışdır.

2021-ci ilin oktyabr-noyabr ayları ərzində reallaşdırılan "Ustad dərsləri" layihəsi çərçivəsində BDU-nun təcrübəli professor və müəllim heyəti üzvləri, tanınmış alimləri tərəfindən MDU tələbələri və gənc əməkdaşları üçün onlayn formatda 9 mühazirə keçirilmişdir. Mühazirələr tarix, hüquq, fizika, riyaziyyat, biologiya, psixologiya, jurnalistika, filologiya, iqtisadiyyat istiqamətləri üzrə müxtəlif mövzulara həsr edilmişdir.

Müvafiq ixtisaslar, o cümlədən "Fizika müəllimliyi" ixtisası üzrə keyfiyyətli kadr hazırlığının həyata keçirilməsi məqsədilə bu sahədə zəngin ənənələrə malik BDU ilə təcrübə mübadiləsinin aparılması əməkdaşlığın əsas istiqamətlərindən biri olmuşdur. 2021-ci ilin oktyabrında BDU və MDU-nun akademik və inzibati heyəti üzvlərinin iştirakı ilə "Fizika müəllimliyi" ixtisası üzrə kadr hazırlığının təşkili" mövzusunda birgə "dəyirmi masa" keçirilmişdir.

Birgə fəaliyyət çərçivəsində 2021-ci ilin oktyabr ayında "Məktəb idarəetməsi və post-pandemiya dövründə orta məktəb təhsili: metodoloji və psixoloji nüanslar" adlı beşgünlük təlim proqramı həyata keçirilmişdir. BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin təcrübəli professor-müəllim heyəti üzvləri tərəfindən onlayn formatda keçirilən təlimlərə Mingəçevir şəhər ümumtəhsil məktəblərinin direktorları, direktor müavinləri və müəllimləri, MDU-nun "Pedaqoji" fakültəsinin gənc əməkdaşları, tələbə və magistrantları qatılmışlar.

Hesabat dövründə MDU və BDU Tələbə Gənclər təşkilatlarının təşkilatçılığı ilə "Nizami Gəncəvi ili"nə həsr olunan "Nizami irsi - insanlığın mənəvi sərvət axtarışının zirvəsində", "Qarabağda quruculuq işlərində gənclərin rolu" mövzularında "dəyirmi masa" və bədii qiraət müsabiqəsi və şəhid məzunların əziz xatirəsinə həsr olunan "Qəhrəmanlarımızı tanıyaq" adlı təqdimat mərasimi və şanlı Qarabağ Zəfərinin birinci ildönümü münasibətilə tələbələr arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə onlayn bilik yarışı keçirilmişdir.

MDU və BDU könüllülərinin birgə təşkilatçılığı ilə 5 dekabr - Beynəlxalq Könüllülər Gününə həsr olunan "Könüllülük uğurlu karyeranın başlanğıcıdır" mövzusunda təqdimat keçirilmişdir. Gənclər arasında könüllülük fəaliyyətinin təbliği məqsədilə onlayn formatda təşkil edilən təqdimatda hər iki universitetin könüllüləri, tələbə və gənc əməkdaşları iştirak etmişlər.

*"ADA" Universiteti*

Hesabat dövründə ölkəmizin qabaqcıl ali təhsil müəssisələrindən biri olan "ADA" Universiteti ilə əməkdaşlığın inkişafına xüsusi önəm verilmişdir. 2021-ci ilin dekabrın 7-də MDU-da "Ali təhsil müəssisəsində elmi-tədqiqat işlərinin gücləndirilməsi yolları" mövzusunda elmi-praktik seminar keçirilmişdir. "ADA" Universitetinin təcrübəli əməkdaşları "Elmi-tədqiqat işi üçün məlumatların toplanması və təhlili" və "Universitetlər arasında birgə elmi-tədqiqat işlərinin təşkili" mövzularında təqdimatlarla çıxış etmişlər. Seminar ABŞ-ın Azərbaycandakı Səfirliyinin maliyyələşdirdiyi və "ADA" Universitetinin reallaşdırdığı "Azərbaycanda Tədqiqat Potensialının Gücləndirilməsi" layihəsi çərçivəsində keçirilmiş "Tədqiqat metodları" və "Akademik yazı" kurslarının yekunu olaraq baş tutmuşdur.

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin modernləşdirilməsi, iqtisadçı kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə dünya səviyyəli universitetə çevrilməyi hədəfləyən UNEC ilə əməkdaşlığa xüsusi önəm verilmişdir.

Belə ki, MDU əməkdaşları, tələbələri və magistrantları UNEC-də təşkil olunan müxtəlif forum, konfrans, vebinar, təlim və digər tədbirlərdə fəal iştirak etmişlər.

Eyni zamanda, cari tədris ilinin payız semestrindən etibarən UNEC-in 1 professoru və 1 müəllimi davamlı əsaslarla (0,5 ştat), 1 dosenti isə saathesabı olmaqla MDU-da tədris prosesinə cəlb edilmişlər.

*Azərbaycan Texniki Universiteti (AzTU)*

Hesabat dövründə AzTU ilə MDU arasında da əməkdaşlığın inkişafı istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

2021-ci ilin 29 noyabr - 1 dekabr tarixlərində Türkiyənin Qazi Universiteti, AzTU və MDU üçtərəfli işbirliyi çərçivəsində Beynəlxalq informasiya təhlükəsizliyi gününə həsr olunan "İnformasiya təhlükəsizliyi: təhlükələr və müdafiə mexanizmləri" mövzusunda elmi seminar keçirilmişdir.

2021-ci ilin dekabr ayında AzTU-nun ev sahibliyi ilə keçirilən "Maşınqayırma və energetika: yeni konsepsiyalar və texnologiyalar" mövzusunda beynəlxalq elmi-praktiki konfransda MDU-nun bir qrup akademik heyət üzvü fəal təmsil olunmuşdur.

2021-ci ilin 23-24 noyabr tarixlərində Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə AzTU-da keçirilən və böyük Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunan doktorantların və gənc tədqiqatçıların XXIV Respublika elmi konfransına MDU böyük heyətlə qatılmışdır.

MDU-nun Mühəndislik fakültəsinin potensialının gücləndirilməsinə və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verən əməkdaşlıq çərçivəsində AzTU-nun bir professoru və bir dosenti davamlı əsaslarla (0.5 ştat) MDU-da tədris prosesində fəaliyyətlərini davam etdirmişlər.

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU)*

MDU-da Pedaqoji fakültənin potensialının gücləndirilməsi və pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən biri olan ADPU ilə əməkdaşlığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır.

MDU ADPU-nun 100 illiyinə həsr olunmuş təntənəli tədbirdə təmsil olunmuşdur. 2021-ci ilin 25-26 noyabr tarixlərində ADPU-nun 100 illiyinə, ADPU Quba filialının 30 illiyinə həsr olunan "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" mövzusunda keçirilən beynəlxalq elmi konfransda MDU əsas tərəfdaşlardan biri olmuşdur.

### Regionda yerləşən ali təhsil müəssisələri ilə əməkdaşlıq

Hesabat dövründə regionda yerləşən universitetlərlə əməkdaşlığın inkişafı istiqamətində də mühüm addımlar atılmışdır.

2021-ci ilin oktyabrın 15-də Lənkəran Dövlət Universitetində MDU ilə birgə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünə həsr olunan elmi-nəzəri konfrans keçirilmişdir. Konfrans çərçivəsində hər iki ali təhsil müəssisəsi arasında Əməkdaşlıq Memorandumu imzalanmışdır. Memorandumda universitetlər arasında tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi, birgə elmi tədbirlərin təşkili və elmi əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdur.

Bununla yanaşı, MDU Naxçıvan Dövlət Universiteti, BDU Qazax filialı və ADPU Quba filialında təşkil edilmiş konfranslarda fəal təmsil olunmuşdur.

### Beynəlxalq əməkdaşlığın inkişafı və yeni tərəfdaşlar

Hesabat dövründə universitetin beynəlxalq əməkdaşlığı daha da genişlənmiş, Erasmus+ proqramında fəal iştirakını davam etdirmişdir.

*Qazi Universiteti*

Zəngin ənənələrə, müasir infrastruktura və güclü kadr potensialına malik Türkiyənin Qazi Universiteti ilə işbirliyi uğurla davam etdirilmişdir.

Əməkdaşlıq çərçivəsində Qazi Universitetinin elektrik-elektronika mühəndisliyi və informasiya təhlükəsizliyi sahələri üzrə professorları Cemal Yılmaz və Ercan Nurcan Yılmaz cari tədris ilindən etibarən MDU-nun Mühəndislik fakültəsində professor vəzifəsində elmi-pedaqoji fəaliyyətə başlamışlar. Qonaq professorlar universitetdə elmin və təhsilin səmərəli təşkili və idarəolunması, tədrisin məzmununun yenilənməsi, fakültə idarəçiliyinin təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdə və müvafiq işçi qruplarının tərkibində fəal iştirak etmiş, akademik heyət üzvlərinin və tələbələrin bilik və bacarıqlarının artırılması məqsədilə müntəzəm olaraq təlim və seminarlar keçirmişlər.

Eyni zamanda, Təhsil Nazirliyi tərəfindən təşkil edilən "Ali və orta ixtisas təhsilinin 2021/2022-ci illər üzrə inkişafı" qrant müsabiqəsində qalib olan "Mingəçevir Dövlət Universitetində kiber təhlükəsizliklə bağlı fənlərin tədrisinin təkmilləşdirilməsi" layihəsi qonaq professorların rəhbərliyi və dəstəyi ilə həyata keçirilir.

Hazırda MDU-nun bir əməkdaşı və bir məzunu Türkiyənin Qazi Universitetində müvafiq olaraq "Təhsilin idarə edilməsi" və "Kompüter elmləri" ixtisasları üzrə doktorantura təhsili alırlar.

2021-ci ilin noyabrın 6-da MDU və Qazi Universiteti arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans keçirilmişdir. Onlayn formatda təşkil edilən konfransda Qazi Universiteti, Kahramanmaraş Sütçü İmam Universiteti və MDU-nun akademik heyət üzvləri tərəfindən "Şuşa Bəyannaməsinin tarixi fonu", "İkinci Qarabağ Savaşında Zəfəri təmin edən amillər və nəticələr", "Bölgənin geosiyasi mənzərəsini dəyişən Tarixi Zəfər" və "Cənubi Qafqazda əbədi sülh, təhlükəsizlik və hərtərəfli inkişaf perspektivləri" mövzularında məruzələr təqdim edilmişdir.

Bununla yanaşı, MDU-nun akademik və inzibati heyəti üzvləri Qazi Universitetində onlayn formatda təşkil edilən bir sıra tədbirlərdə fəal iştirak etmişlər.

*Ankara Hacı Bayram Veli Universiteti (AHBVU)*

Türkiyənin çağdaş və yenilikçi ali təhsil müəssisələrindən biri olan AHBVU ilə yaradılan əməkdaşlıq əsasən MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin potensialının gücləndirilməsinə, xüsusilə turizm təhsilinin inkişafına töhfə verilməsinə hədəflənmişdir.

2021-ci ilin noyabrın 5-də MDU və AHBVU arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan onlayn formatda birgə elmi konfrans keçirilmişdir. Hər iki universitetin akademik və inzibati heyət üzvlərinin, tələbə və magistrantlarının qatıldığı konfransda "Qlobal inkişaf işığında Türkiyə - Azərbaycan turizm münasibətləri: Qarabağ yeni bir turizm destinasiyası kimi", "Qarabağ Zəfəri: Azərbaycan tarixi mirasına yenidən qovuşdu" və "Qarabağ Zəfərinin əldə edilməsində liderlik faktoru" mövzularında məruzələr dinlənilmişdir.

AHBVU-nun Turizm və MDU-nun İqtisadiyyat və idarəetmə fakültələrinin rəhbər və inzibati heyət üzvləri arasında işçi qaydada keçirilən görüşlərdə magistratura səviyyəsində birgə proqramların həyata keçirilməsi, ortaq sertifikat proqramlarının reallaşdırılması və müvafiq tədqiqat mərkəzinin yaradılması ilə bağlı məsələlərdə ilkin razılıq əldə edilmişdir.

*KTO Karatay Universiteti*

Hesabat dövründə Türkiyənin sənaye mərkəzlərinin birində yerləşən və müasir kampus məkanına sahib olan KTO Karatay Universiteti ilə əməkdaşlığın inkişafına diqqət göstərilmişdir.

2021-ci ilin noyabrın 5-də universitetlər arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans keçirilmişdir. Konfransda "Qarabağ Zəfərinin birinci ildönümü ərəfəsində: Türkiyə - Azərbaycan və Türk Dünyası üçün beynəlxalq ticarət və logistika baxışı", "Millətimiz bir, enerjimiz bir", "Türk torpaqlarına qayıdış yeni tariximizin şanlı bir səhifəsidir", "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı potensialı və modernləşmə perspektivləri" mövzularında məruzələr təqdim edilmişdir.

KTO Karatay Universitetinin akademik heyət üzvləri MDU-da "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda keçirilən beynəlxalq elmi konfransda fəal iştirak etmişlər.

*İstanbul Gedik Universiteti (İGÜN)*

2021-ci ilin dekabrın 13-də MDU və İGÜN arasında əməkdaşlıq protokolu imzalanmışdır. Qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutan protokol tələbə və akademik heyətin mübadiləsi, birgə elmi tədqiqatlar, universitet-sənaye əməkdaşlığı çərçivəsində ortaq fəaliyyətləri əhatə edir.

*Kiyev Milli İqtisadiyyat Universiteti (KNEU)*

Cari tədris ilinin payız semestrində Ukraynanın KNEU Universiteti ilə əməkdaşlığın inkişafı istiqamətində mühüm addımlar atılmışdır.

MDU əməkdaşları KNEU-da 2021-ci ilin oktyabrın 7-də "Ukraynada marketinq təhsili" mövzusunda 5-ci beynəlxalq elmi-praktik konfransda, oktyabrın 21-də isə "KNEU beynəlmiləlləşmə strategiyası: yeni yanaşmalar" mövzusunda beynəlxalq konfransda fəal iştirak etmişlər.

Ötən ilin oktyabrın 27-də Kiyevdə hər iki universitetin rektorları arasında görüş keçirilmişdir. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Oktyabrın 28-də MDU rektoru KNEU-nun 115 illik yubiley mərasimində iştirak etmişdir. Yubiley çərçivəsində MDU və KNEU arasında əməkdaşlıq memorandumu imzalanmışdır. Potensial əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutan memorandum tələbə və müəllim mübadiləsi, ortaq təhsil proqramları, tədqiqatlar, elmi konfranslar, forumlar və digər istiqamətlərdə birgə fəaliyyətləri nəzərdə tutur.

2021-ci ilin noyabrın 24-də MDU KNEU-da "Elm-Biznes-Təhsil: Strateji tərəfdaşlıq" mövzusunda keçirilən IX Beynəlxalq Biznes Forumda təmsil olunmuşdur.

*Kiyev Milli Texnologiya və Dizayn Universiteti (KNUTD)*

Ötən ilin oktyabrın 29-da Ukraynada rektorların görüşü baş tutmuş, MDU və KNUTD arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

2021-ci ilin noyabrın 4-də MDU-nun bir qrup akademik heyət üzvü KNUTD-da "Mexatron sistemlər: innovasiyalar və mühəndislik" mövzusunda keçirilən V beynəlxalq elmi-praktiki konfransda iştirak etmişdir.

*Erasmus+ proqramı*

MDU Avropa İttifaqının Erasmus+ proqramı çərçivəsində həm potensialın gücləndirilməsi, həm də tələbə və müəllim mübadiləsi layihələrində fəal iştiraka xüsusi diqqət yetirir. Bu proqram çərçivəsində hazırda MDU-nun bir tələbəsi Rumıniyanın Transilvaniya Braşov Universitetində bakalavr, bir əməkdaşı isə Sloveniya Respublikasının Nova Gorica Universitetində doktorantura təhsilini davam etdirir.

Bundan başqa, MDU "Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar" (GEOCLIC) adlı Erasmus+ layihəsində fəal iştirakı davam etdirmişdir.

*Kəmər və Yol Universitet Alyansı (UAB&R)*

2021-ci ilin dekabrında MDU Çində fəaliyyət göstərən Kəmər və Yol Universitet Alyansına üzv qəbul edilmişdir. Alyans çərçivəsində MDU kadr hazırlığı, elmi tədqiqat, yeni fənlərin yaradılması, akademik mübadilə, bilik və texnologiyaların mübadiləsi və digər sahələrdə əməkdaşlıq edəcəkdir.

Dövlətimizin və tərəfdaşlarımızın dəstəyi ilə MDU-da baş verən keyfiyyət dəyişiklikləri və əldə olunan nailiyyətlər müasirləşmə mərhələsində olan universitetin strateji hədəflərinə yaxınlaşmasına böyük zəmin yaratmışdır.

# Ümumi təhsillə bağlı bəzi problemlər barədə

**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

Həyat böyük bir prosesdir. Bu prosesdə iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**

**Ölkəmizin ümumi təhsil sistemi qabaqcıl beynəlxalq təcrübəyə uyğun aparılan islahatlar nəticəsində məzmun və mahiyyət baxımından xeyli inkişaf edib zənginləşsə də, elə məsələlər vardır ki, onları əhəmiyyətlilik cəhətdən müzakirə və tədqiqat mövzusuna çevirərək müəyyən qənaətə gəlmək, zənnimcə, faydalı olardı. Haqqında danışacağımız məsələlərə münasibət bildirilməsi ilə əlaqədar müəyyən vaxtlarda təkliflər səsləndirilsə də, bu və ya digər səbəblərdən müzakirəsi başa çatdırılmamışdır. Bu yazıda onların bəzilərini öz qənaətimizə görə əsaslandırmağa çalışacağıq. Heç şübhəsiz, fikir ayrılıqlarının olacağını da təbii qəbul edirik. Beləliklə:**

## Buraxılış imtahanları vacibdirmi?

Müəyyən olunmuş qaydalara görə, tədris Azərbaycan, rus və gürcü dillərində aparılan ümumi təhsil müəssisələrində ümumi təhsil pilləsinin ümumi orta və tam orta təhsil səviyyələrini başa vuran şagirdlər üçün tədris dili, xarici dil və riyaziyyat fənlərindən nailiyyətlərin qiymətləndirilməsi (yekun attestasiya) məqsədi ilə buraxılış imtahanları keçirilir.

Məktəbdaxili qiymətləndirmənin bir növü olan və iki formada (kiçik summativ, böyük summativ) aparılan summativ qiymətləndirmələr də fənlər üzrə məzmun standartlarının mənimsənilməsi ilə bağlı şagirdlərin nailiyyətlərinin müəyyən olunmasına xidmət edir. Qaydalara uyğun olaraq, müəllimlər və məktəblərin rəhbərliyi tərəfindən aparılan summativlər qiymətləndirmə baxımından daha geniş imkanlara malikdir, çünki tədris ilinin müəyyən dövrlərində mütəmadi təşkil edilir, nəticələri təhlil olunur.

Nümunə üçün deyək ki, məsələn, hər hansı bir şagird illər boyu aparılan summativlərin yekunlarına görə, buraxılış fənlərindən “3”, yaxud “4”-dən artıq qiymət ala bilməyibsə, həmin şagird (şagirdlər) nə səbəbdən təkrar olaraq yekun attestasiya adlanan buraxılış imtahanlarından keçməlidir?! Bildirilə bilər ki, müəllimlərin verdikləri qiymət (qiymətlər) şişirdilmiş ola bilər, buraxılış imtahanları isə obyektivliyi təmin edir. Əgər belədirsə, axı buraxılış imtahanları yalnız üç fəndən keçirilir, digər fənlərdən təhsil sənədlərinə yekun qiymətlər kimi summativlərin nəticələri yazılır. Deməli, obyektivlik o üç fənnə aiddir, qalanlarına isə yox?!

Fikrimizcə, buraxılış imtahanları keçirilmədən şagirdlərə illik qiymətlər əsasında təhsil sənədi verilərsə, bu, şagirdlərin psixoloji vəziyyətinə müsbət təsir göstərə bilər.

## Müəllimlik ixtisasına testlə qəbul qəbuledilləndirmi?

Ali və orta ixtisas təhsili müəssisələrinə test üsulu ilə tələbə qəbulu obyektivliyin təmin olunmasında mühüm rol oynayıb və bu gün də uğurla davam etdirilir.

Lakin müəllim peşəsi, pedaqoji iş elə bir məsuliyyətli, taleyüklü fəaliyyət sahəsidir ki, bu ixtisasa sadəcə test suallarına cavabların nəticələrinə görə tələbə qəbul etmək əksər hallarda özünü doğrultmur. Hətta bu peşəni sevmədən, yalnız ali məktəbə daxil olmaq xatirinə ərizə verənlərin sayı da az deyildir. Başqa bir ixtisas seçib balı çatmadığı üçün müəllimlik ixtisasına yönəldilənlər də mövcuddur. Belələrinin gələcəkdə yaxşı müəllim kimi bu peşəyə bağlanacaqları həmişə sual altında olub.

Müəllimləri, müəllimliyi şərtləndirən xüsusiyyətləri kim bilmir ki: ixtisası üzrə qaneedici savad səviyyəsi ilə bərabər, daha çox sadə, ləyaqətli, ədalətli, mərhəmətli, şəfqətli olması. Eyni zamanda müəllim həmişə aydın nitqə malik, xoşsimalı və xoşrəftarlı, mehriban, səliqəli insan kimi təsəvvür olunub. Bu mənada müəllimlik ixtisasına qəbul prosesini müəyyən edilmiş qaydalar əsasında abituriyentlərlə canlı təmas şəraitində xüsusi komissiyalar vasitəsilə keçirmək, yəqin ki, daha çox fayda verərdi. Belə olduğu halda, düşünürük ki, komissiyalar (bəlkə də iki mərhələdə) abituriyentin savadı ilə yanaşı, onun nitq qabiliyyəti, bu peşəyə marağı, uşaqlara münasibəti, psixoloji və fiziki vəziyyəti, dünyagörüşü, xarizmatikliyi barədə məlumatlanıb müəyyən qərar qəbul edə bilər.

Bir məsələyə də diqqət yetirmək yerinə düşərdi. Ola bilərmi ki, qəbul prosesinin nəticəyönümlüyünü, faydalılıq əmsalını daha da gücləndirmək üçün ayrı-ayrı bölgələrin fənlər üzrə müəllim kadrlarına ehtiyacı əvvəlcədən öyrənilsin, müddətli perspektiv planlaşdırma aparılsın, aidiyyəti bölgə məzunlarının təhsilini başa vurduqdan sonra həmin ərazinin müvafiq məktəblərində işləmək şərtilə zəruri ixtisaslara müsabiqədənkənar məqsədli qəbul təşviq və təmin



edilsin.

Ehtimal edirik ki, qəbul prosesinin, qismən də olsa, regionların ehtiyacına nəzərən aparılması mexanizminin hazırlanması və tətbiqi pedaqoji kadr sahəsində bir sıra problemlərin həllinə əhəmiyyətli dərəcədə köməklik göstərər.

## İbtidai təhsil: müəllim necədirsə, sinif də elədir

“Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır”. Müəllimə hörmət və məhəbbətin nuruna boyanmış bu səmimi sözlər ulu öndər Heydər Əliyevə məxsusdur. İnsanın həyatında müəllimlərin, əlbəttə ki, əsl müəllimlərin rolu danılmazdır. Lakin müəllimlərdən söz düşəndə insanlar istər-istəməz ilk müəllimini-ibtidai sinif müəllimini xatırlayırlar. Şübhəsiz ki, o müəllim, xüsusən də, ibtidai sinif müəllimi xoşbəxtdir ki, şagirdlərinin yaddaşında mənəvi heykəllərini ucaldıblar.

Hər birimiz ibtidai təhsili bünövrə adlandırırıq. Çünki məktəbəqədər təhsildən sonra uşağın daha məsul dövrü, ətraf aləmə, mənəvi dəyərlərə inteqrasiyası, meyil-maraqlarının, dünyagörüşünün formalaşması başlanır, potensial imkanları, psixoloji və xarakter xüsusiyyətləri üzə çıxarılır. Bir sözlə, ibtidai təhsil uşağın dəyərini qiymətləndirən sanki bir məhək daşıdır. Uşağın növbəti səviyyələrdə təhsilinin uğuru birbaşa ona verilən ibtidai təhsilin keyfiyyətindən çox asılıdır. Bir qədər sərt səslənsə də, millətin intellektual genefondunun formalaşmasında ibtidai təhsilin rolunu heç nə ilə əvəz etmək olmaz.

Yaxşı deyiblər ki, “o müəllim yaxşı öyrədir ki, onu yaxşı öyrədiblər.” Bu gün də ölkəmizdə peşəkar, müasir tələblər yönümündə çalışan ibtidai sinif müəllimləri xeyli saydadır. Lakin onu da etiraf etmək lazımdır ki, qarşıya qoyulmuş tələblərlə uzlaşmayan müəllimlər də az deyildir.

Fikrimizcə, mövcud vəziyyətə bəzi hallarda yerli təhsil orqanlarının seyrçi mövqedə durması, ötəri münasibət göstərməsi, müsbət mənada fərqlənməyən müəllimlərin fəaliyyətlərini prinsipiallıqla araşdırıb qiymətləndirməməsi, onları yaxşılarla bir sırada tutmaları qətiyyən yolverilməzdir.

Mütəmadi olaraq IX və XI siniflər üzrə buraxılış imtahanlarının nəticələri təhlil və müzakirə edilir, mənfi göstəricilər nəzərə çatdırılır. Digər obyektiv cəhətlər olsa da, zəif, qeyri-məqbul nəticələr, həqiqətən, həmin uşaqların vaxtilə təhsil aldığı ibtidai siniflərdən qaynaqlanır. Şagird normal ibtidai təhsil almayıbsa, hətta yazıb-oxumaqda, hesablamada ciddi çətinlikləri varsa, yuxarı siniflərdə onun keyfiyyətli təhsil almasından danışmaq çətindir.

Qənaətimiz bundan ibarətdir ki, ən əvvəl, tutarlı araşdırmalar aparıb belə müəllimləri aşkara çıxarmaq, daha sonra onlara qarşı görülə biləcək tədbirləri müəyyənləşdirib müzakirəyə çıxarmaq və müvafiq təkliflər hazırlamaq məqsədəuyğun olardı.

## Metodbirləşmələr özünü nə dərəcədə doğruldur?!

Araşdırmalar göstərir ki, bəzi ümumtəhsil məktəblərində metodik xidmətin təşkili məqsədilə yaradılan fənn metodbirləşmələri təyinatına görə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini tam təmin edə bilmir. Halbuki xüsusilə indiki dövrdə hər bir məktəbdə müəllimlərin peşəkar hazırlıqlarının daim nəzarətdə saxlanılması, onlara metodik köməkliyin təkmil formalarından istifadə edilməsi ciddi məsələ kimi qarşıda durur.

Nə etməli? Bu sual ətrafında düşünülməli, təkliflər verilməlidir. Aydın məsələdir ki, məktəbin uğurları səmərəli idarəetmə ilə yanaşı, bilavasitə müəllimlərin elmi-nəzəri səviyyəsindən, metodik sahədə kamilliyindən asılıdır. Şübhəsiz, müəllim inkişaf etməlidir, daim öyrənməli, bilik və peşə ustalığını artırmalıdır. Fikrimcə, həmin işlərin təşkili və tənzimlənməsi üçün məktəblərdə Pedaqoji şuranın qərarı ilə ümumi rəhbərliyi təlim-tərbiyə işləri üzrə direktor müavininə həvalə olunmuş bir alt-qurum, məsələn, metodiki xidmətlə bağlı tədbirlərin tənzimlənməsi və keyfiyyətcə yaxşılaşdırılmasını həyata keçirən Metodiki şura (“Təhsil haqqında Qanun, 30.6-cı maddə) yaradıla bilər.

Metodiki şuranın fəaliyyət istiqamətlərini nümunəvi şəkildə aşağıdakı kimi müəyyənləşdirmək olar:

* Qabaqcıl pedaqoji təcrübələrin və təhsil innovasiyalarının öyrənilməsi və tətbiqi;

* Yeni təhsil proqramları (kurikulumlar) və qiymətləndirmə növlərinin daha təkmil məzmunda tətbiqinə həsr olunmuş öyrədici seminar və “dəyirmi masa”ların keçirilməsi;

* Qabaqcıl fənn müəllimlərinin iş təcrübələrinə aid təqdimat və ustad dərslərinin təşkili;

* Sinifdənxaric və məktəbdənkənar tədbirlərin fənlər üzrə təlim materiallarının məzmun və mahiyyəti ilə uyğunlaşdırılması, biri digərini tamamlaması imkanları barədə təklif və tədbirlərin müəyyən olunması;

* Şagirdlərin təlim göstəricilərinin təhlil edilməsi və həmin əsasda fənlər üzrə reytinq cədvəllərinin hazırlanması, bu və ya digər fənnin tədrisi vəziyyəti haqda məsələyə Pedaqoji şurada baxılması üçün təkliflərin verilməsi;

* Ümumi təhsillə bağlı yeniliklər və övladlarının təhsildə irəliləyiş və geriləmələri barədə valideynlərin məlumatlandırılması işinin təşkili və s.

Əlbəttə, bu tədbirlərin sayını artırmaq, yaxud başqa redaksiyada ifadə etmək, əlavə alt-tədbirlər müəyyənləşdirmək mümkündür. Eyni zamanda, nəzərdə tutulan işlərin fənn sahələrinin məqsəd və vəzifələri, problemləri baxımından yerinə yetirilməsi üçün şuranın nəzdində nümunəvi fənn bölmələri də təşkil oluna bilər:

* Məktəbəhazırlıq və ibtidai siniflər;

* Humanitar fənlər (tədris dili, Azərbaycan dili-dövlət dili kimi, xarici dillər, ədəbiyyat, Azərbaycan tarixi, ümumi tarix);

* texniki və təbiət fənləri (riyaziyyat, informatika, fizika, kimya, biologiya, coğrafiya);

* Psixomotor fənlər (fiziki tərbiyə, təsviri incəsənət, musiqi, texnologiya, çağırışaqədərki hazırlıq).

Heç şübhəsiz ki, metodiki şuranın təşkili müəyyən bir normativ sənədə (əvvəllər belə bir sənəd layihəsi hazırlanmışdı) əsaslanmalıdır ki, burada şuranın fəaliyyət istiqamətləri, strukturu, hüquq və vəzifələri öz əksini tapmış olsun.

## Dərəcəli attestatlar ola bilərmi?

Məlumdur ki, hazırda təhsil nailiyyətlərindən asılı olaraq, ölkəmizin ümumtəhsil məktəblərinin IX sinif məzunlarına adi, fərqlənmə, XI sinif məzunlarına isə bunlarla yanaşı, həm də xüsusi nümunəli attestatlar təqdim olunur. Bu, tam təbii, ədalətli haldır, çünki məzunun aldığı sənəd onun təhsil fəaliyyətinin aynasıdır.

Lakin diqqət etdikdə adi attestatlarla bağlı düşündürücü bir hal meydana çıxır: bu növ attestatların təlim göstəriciləri arasında sanki bərabərlik işarəsi qoyulmuşdur, yəni orta attestat qiyməti “3” olan da, deyək ki, “4”, “4,5” olan da fərqləndirilmədən hər biri adi attestat alır.

Fikrimizcə, bu vəziyyəti aradan qaldırmaq üçün dərəcəli adi attestatların tətbiqi barədə məsələni müzakirə etmək, rəy və mülahizələri dinləmək faydalı olardı.

Yəqin ki, mübahisələrə səbəb olacaq bəzi məsələlər barədə də fikirlərimi bölüşmək istərdim. Belə bir stereotip mövcuddur: ümumi təhsilin tam orta təhsil səviyyəsini aşağı (bir sıra hallarda çox aşağı) qiymətlərlə bitirsə də, məzunun ali məktəbə qəbul imtahanı vermək hüququ vardır. Təsəvvür edək ki, həmin məzun (məzunlar) özünün biliyini, hazırlıq səviyyəsini, attestatına yazılan qiymətləri nəzərə almadan, digərlərindən fərqlənməmək xatirinə qəbul imtahanı verir və uğursuzluğa uğrayır, növbəti il də eyni vəziyyət təkrar olur. Bu, məzuna nə verir?! Əlbəttə, vaxt itkisi, pessimistlik, ruhi düşkünlük... Etiraf edək ki, məzunun aldığı təhsil sənədi, müəyyən istisnaları çıxmaq şərtilə, onun fəaliyyət yolunu müəyyənləşdirən kompasdır. Əslinə qalsa, potensial imkanlarına görə, hər bir məzunun bacara biləcəyi işə, peşəyə, sənət növünə həm məktəb, həm də valideyn tərəfindən düzgün istiqamətləndirilməsi elə onun vətəndaş hüququnun müdafiəsi deməkdir.

Ehtimal edirik ki, tam orta təhsil üzrə adi attestatın statusuna məzunun yekun qiymətlərinə uyğun müəyyən hədd qoyulmalıdır: hansı adi attestat məzuna hansı təhsil müəssisəsində təhsilini davam etdirməyə əsas verir?! Dərəcəli adi attestatların tətbiqi təklifi də məhz bu fikirdən qaynaqlanır.

## Tam orta məktəb statusu və müəllim fəaliyyətinin qiymətləndirilməsi

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa və “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsinə” uyğun olaraq, ümumi təhsil pilləsinin tam orta təhsil səviyyəsində şagirdlərin istedadlarının reallaşdırılması üçün lazımi şəraitin yaradılması, onlarda ünsiyyət mədəniyyəti, təşkilatçılıq, tədqiqatçılıq, birgə fəaliyyət, İKT-dən sərbəst istifadə bacarıqlarının, obrazlı və tənqidi təfəkkürün formalaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması və s. tələblər irəli sürülür.

Şübhəsiz, bu tələbləri yerinə yetirmək üçün tam orta təhsil səviyyəsi olan ümumtəhsil məktəblərində möhkəm maddi-texniki və tədris bazası, güclü pedaqoji kadr heyəti olmalı, səriştəli idarəetmə sistemi qurulmalıdır. Yaxşı haldır ki, dövlətin diqqət və qayğısı sayəsində məktəb binalarının inşası, əsaslı təmiri və yenidən qurulması işlərinin davamlı şəkildə həyata keçirilməsi təhsil şəraitinin əsaslı surətdə yaxşılaşmasına, xüsusilə də, tam orta təhsilin keyfiyyətinə əhəmiyyətli təsir göstərir.

Bununla belə, o da etiraf olunmalıdır ki, tam orta məktəb statuslu məktəblərin (xüsusilə kənd yerlərində) heç də hamısı qanunvericiliklə müəyyən edilmiş tələb və öhdəliklərə tam cavab vermir. Mövcud vəziyyətin səbəbləri müxtəlif arqumentlərlə izah olunur: məktəb binasının şəraitsizliyi, tədris bazasının zəifliyi, yol-nəqliyyat problemləri, bir sıra hallarda müəllim çatışmazlığı, internetin olmaması, valideynlərin övladlarının təhsilinə laqeyd münasibəti və s.

Əlbəttə, obyektiv və subyektiv problemlər mövcuddur, onların bəziləri nəzərə alınmalıdır. Lakin, hər şeydən əvvəl, ciddi təhlillər aparılmaqla (təmayüllü tam orta təhsil siniflərinin təşkilində belə araşdırmalar həyata keçirilmişdi) hər bir rayonun kənd ərazilərində kiçik kontingentli, şəraitsiz tam orta məktəbləri ümumi orta məktəblərə çevirməklə (onsuz da icbari təhsil ümumi orta təhsildir) normal tam orta məktəblərin zonalar üzrə təşkili və bununla əlaqədar şagirdlərin qismən uzaq məktəblərə daşınmasının həlli məsələsinə baxmaq zəruri problem kimi meydana çıxır.

Bütün bunlar öz yerində, ancaq obyektiv-subyektiv çətinliklər olsa da, şagirdlərin savad səviyyəsi diqqətdən kənarda qalmamalıdır.

Yeri gəlmişkən, yerlərdə araşdırma apararkən belə faktlar da aşkara çıxarılırdı ki, məsələn, bir müəllim 5 il ərzində müxtəlif siniflər üzrə 300-350 şagirdə dərs deyib və bu şagirdlərin 65-75 faizinin biliyi “3”-lə qiymətləndirilib. O zaman sual meydana çıxır: Müəllim öyrədə bilmir, yaxud uşaqlar öyrənmək istəmirlər?! Təbii ki, cavab müəllimin xeyrinə deyil. Və ya müəllimlər var ki, “bilmir” deyib şagirdə “2” yazmaqla işlərini bitmiş hesab edirlər. Əslində, “2” qiymətlə müəllim şagirdi yox, özünü qiymətləndirir. Əgər dərs dediyi fəndən uşağa elementar səviyyədə heç nə öyrədə bilmirsə, onun müəllimliyi şübhə altına düşür. Söz yox ki, məktəbə gələn şagird, bəzi obyektiv səbəblər istisna olunmaqla, ya ümumi orta, ya da tam orta təhsil səviyyəsini bitirməlidir, “2” qiymət yazmaqla şagirdi sinifdə saxlamaq kimi qeyri-humanist təcrübədən biryolluq imtina edilməlidir.

İbrətamiz bir fikir mövcuddur: “Müəllim var həqiqəti uşaqlara çatdırır, müəllim də var ki, uşaqlara həqiqətin yolunu tapmağı öyrədir”. Şübhəsiz, bizim məktəblərə müstəqil düşünən, yaradıcı təfəkkürlü, millətə, xalqa sədaqətli gənclər yetişdirən müəllimlər lazımdır. Belə müəllimlər hər cür hörmət və ehtirama layiqdirlər.

Bu yazıda, bizim təbirimizcə, problemli hesab olunan bəzi məsələlərə toxunduq. Güman edirik ki, qeyd edilən təkliflərə münasibət bildirilməsi üçün onların müəyyən səviyyələrdə müzakirəyə çıxarılması faydalı olar.

**P.S.** Son zamanlar şagirdlərə verilən, xüsusilə də, ibtidai sinif şagirdləri üçün müəyyən olunan ev tapşırıqlarının mahiyyəti və həcmi barədə valideynlərin iradları artmaqdadır. Hesab edirik ki, bununla əlaqədar müəllimlərin, məktəb rəhbərləri və təhsil mütəxəssislərinin iştirakı ilə diskussiyalar aparıb bu sahədə mövcud normativ sənədin təkmilləşdirilməsi istiqamətində də təkliflərin hazırlanması yerinə düşərdi.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Lənkəran Dövlət Universiteti

vakant yerlər üzrə aşağıdakı qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

**1. "Tarix-coğrafiya və incəsənət" fakültəsi üzrə:**
Dekan - 1.0 ştat - 1 yer.

**2. "İqtisadiyyat və innovativ idarəetmə" kafedrası üzrə:**
Kafedra müdiri - 1.0 ştat - 1 yer.

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50.
**www.lsu.edu.az**, **E-mail:** office@lsu.edu.az

**Telefon:** (02525) 5-25-88, (daxili-105).

**REKTORLUQ**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 1022 **Sifariş** 501

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Şərur rayon** Sərxanlı kənd tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Mahmudova Seyran Yavər qızına verilmiş 711408 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Liman şəhər 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Abdullayev Ramid Səadət oğluna verilmiş B-063251 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yuxarı Tala 2 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Mikayılova Şərafət Murad qızına verilmiş A-725666 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 3 nömrəli tam orta məktəbi 27.08.2020-ci ildə bitirmiş Nurəliyev Riad Nurəli oğluna verilmiş E-345357 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2007-ci ildə Allahverdiyeva Kəmalə Qurban qızına verilmiş BB-II-052968 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Məmmədov Rüfət Sədrəddin oğluna verilmiş A-080502 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 34 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova (Əhmədova) Lamiyə Hafiz qızına verilmiş A-051867 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 176 nömrəli tam orta məktəbi 18.06.2007-ci ildə bitirmiş Dəmirova Sultanə Fərhad qızına verilmiş B-367019 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Sultanova Şəfəq Akif qızına verilmiş A-669945 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qızılağac kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Hüseynova Röyalə Habil qızına verilmiş N-523227 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Aşıq Pənah adına Humanitar fənlər təmayüllü şəhər 1 nömrəli məktəb-liseyi** 2003-cü ildə bitirmiş Ağabəyli Orxan İbrahimpaşa oğluna verilmiş A-670151 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Şorsulu kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Axundova Xanbacı Xaləddin qızına verilmiş B-467832 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Ə.Əliyev adına Talış kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş İbrahimov İsrafil İsmayıljonoviçə verilmiş 637 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli məktəb-liseyin IX sinfini 14.06.1996-cı ildə bitirmiş İmranova Samirə Nurməhəmməd qızına verilmiş B-031408 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 49 nömrəli "İntellekt" məktəb-liseyin IX sinfini 05.07.2014-cü ildə bitirmiş Hüseynova Sara Vahid qızına verilmiş A-439381 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta məktəbi 22.06.2010-cu ildə bitirmiş Rəsulov Orxan Mikayıl oğluna verilmiş B-685600 nömrəli orta təhsil haqqında ttestat itdiyi üçün etibarsız sayılır.

**9 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2006-cı ildə Xəlilov Yusif Ədalət oğluna verilmiş BB-014461 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** E.Nadirov adına 8 nömrəli şəhər beynəlmiləl tam orta məktəbi 2016-cı ildə bitirmiş Əsgərzadə Seyidhüseyn Elçin oğluna verilmiş A-570819 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta məktəbi 14.07.2007-ci ildə bitirmiş Rəfiyeva Sevda Faiq qızına verilmiş B-381784 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2008-ci ildə Əliyev Tariel Cavanşir oğluna verilmiş B-127978 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abbasova Aynur Hikmət qızına verilmiş B-306119 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Türkmən kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Qarayeva Türkan Qara qızına verilmiş A-543719 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2000-ci ildə Çabalova Nigar Nəriman qızına verilmiş A-055921 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 253 nömrəli tam orta məktəbi 24.05.2003-cü ildə bitirmiş Dursunov Söhrab Allahverdi oğluna verilmiş AN-660059 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2020-ci ildə Qadaşlı Abidət Vahid qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Mustalızadə Orxan Qubad oğluna verilmiş C-102815 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Mövlayeva (Bağırova) Validə Alqış qızına verilmiş A-529630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Muxtarov Elşad Şahin oğluna verilmiş B-129762 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Quliyeva (Ələsgərova) Şəlalə Nadir qızına verilmiş AP-28 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Hacısamlı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Əlizadə Rəşad Sənan oğluna verilmiş A-442590 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2010-cu ildə Qasımov Elvin Aqil oğluna verilmiş B-169512 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Ə.Vahid adına Masazır kənd 1 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Qovxarova Gülaçar Rövşən qızına verilmiş E-291796 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 160 nömrəli Klassik Gimnaziyanı 01.07.2021-ci ildə bitirmiş Abdı Dilbər Səbuhi qızına verilmiş E-356089 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2011-ci ildə Cəfərova (İbrahimli) Pərvin Kərəm qızına verilmiş BB-II-115235 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb Lisey Kompleksini** tam orta təhsil bazası üzrə 2019-cu ildə bitirmiş Xubyarov Fəxri Şamil oğluna verilmiş E-193417 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta məktəbi 16.06.2004-cü ildə bitirmiş Əsgərova Nurlanə Güləhməd qızına verilmiş B-019800 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2018-ci ildə Namazov Hikmət Müsaməddinoviçə verilmiş AA-114627 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 1 nömrəli məktəb-liseyi 2007-ci ildə bitirmiş Əhmədova Aytən Nadir qızına verilmiş A-459046 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 9 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Calallı Höccət Rəşadət oğluna verilmiş A-545480 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Musayeva Zalxa Nəzir qızına verilmiş AK-120116 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Hüseynbəyli kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Quliyeva Leylan Elşad qızına verilmiş A-648366 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1994-cü ildə İskəndərov İskəndər Məmməd oğluna verilmiş AB-I-023001 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 11.02.2010-cu ildə bitirmiş Əliyev Rüfət Rəşid oğluna verilmiş B-672416 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ağlavaşlı kənd tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Hüseynov Etibar Ələkbər oğluna verilmiş A-695992 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Z.Namazov adına Könüllü kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Abbasov Afiq Çingiz oğluna verilmiş B-076294 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 14.07.2016-cı ildə bitirmiş Əhmədov Elmar Fərman oğluna verilmiş A-503257 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 311 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əliyev İqbal Kiram oğluna verilmiş A-681551 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan müəllimi" qəzetinin kollektivi iş yoldaşları Şakir Cəfərova əzizi

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Öyrənmək, özünü tanıtmaq, istirahət məkanı

## Riyaziyyat və texniki ixtisaslarda təhsil alan tələbələr "Qış düşərgəsi"ndə bir araya gəldilər


Tural Alışov


Nigar Adıgözəlova


Rüstəm Babazadə


Günel Qarayeva


Tofiq Orucov

⇦ Əvvəli səh.1

Düşərgədə iştirak etmək istəyən tələbələr *https://anket.edu.az/link/174* linki vasitəsilə qeydiyyatdan keçərək ali riyaziyyat üzrə baza biliklərin yoxlanılması məqsədilə təşkil olunan test imtahanında iştirak ediblər. 6 ali təhsil müəssisəsinin uğur qazanan 23 tələbəsi 9 gün "Qış düşərgəsi"ndə təcrübəli müəllimlərdən öz ixtisasları üzrə biliklər əldə etməklə, tətbiq olunan yeniliklərlə tanış olmaqla yanaşı, eyni zamanda əyləncə dolu anlar yaşayıblar".

Düşərgə çərçivəsində reallaşdırılan tədbirlərə toxunan Tural Alışov gənclərimiz üçün təşkil olunan təlimlərdən də söz açdı. Təlimlər zamanı aparılan müxtəlif qiymətləndirmələrin, həmçinin sonda hər bir müəllimlə edilən müzakirələrin nəticələrinə əsasən tələbələrin səviyyəsinin qənaətbəxş olmasını müsbət dəyərləndirdi: "Layihənin əsas məqsədlərindən biri tələbələr arasında canlanma yaratmaq, ali riyaziyyata marağı artırmaq idi".

Şöbə müdirinin sözlərinə görə, riyaziyyat sahəsi üzrə yüksək elmi biliklərə malik, analiz qabiliyyəti olan tələbələrin aşkar edilməsi, onlarla müxtəlif layihələrdə sıx əməkdaşlığın qurulması gözləntilər sırasında olub: "Hesab edirik ki, "Qış düşərgəsi" Təhsil Nazirliyi və Təhsil İnstitutunun birgə layihəsi olaraq tələbələr arasında canlanmaya səbəb olmaqla yanaşı, qoyulan hədəflərə çatmağımıza öz əhəmiyyətli təsirini göstərdi".

Bəs görəsən "Qış düşərgəsi"nin 9 günlük sakini olan tələbələrimiz Qubadan hansı təəssüratlara dönüblər? Həmsöhbətimiz olan gənclər düşərgədə keçirdikləri günləri tələbəlik illərinin ən maraqlı məqamları kimi yaddaşlarında qalacağını söyləyirlər.

### Qarşıma qoyduğum məqsədimə doğru ilk addım

*Nigar Adıgözəlova (Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin III kurs tələbəsi):*

– Kompüter elmləri ixtisası üzrə təhsil alıram. Tədris ingilis dilində aparılır. Universitetə daxil olduğum ilk illərdən tələbələrlə bağlı həyata keçirilən müxtəlif layihələrlə hər zaman maraqlanmışam və bəzilərində iştirak etmişəm. Bunların gələcəkdə bir sıra uğurlu nəticələr əldə etməyimdə əhəmiyyətli olacağına inanıram. Təhsil Nazirliyinin təşəbbüsü və Təhsil İnstitutunun təşkilatçılığı ilə Quba rayonunda təşkil edilən "Qış düşərgəsi" layihəsini qarşıma qoyduğum məqsədimə doğru ilk addım hesab edirəm. Düşərgəyə qatılmaq üçün verdiyim test imtahanı zamanı doğrusu bir qədər gərgin idim. Lakin sahəmlə bağlı olaraq riyazi savadıma güvənərək imtahandan asanlıqla keçəcəyimə inandım və bacardım.

Onu da xüsusi qeyd edim ki, 9 gün davam edən düşəgədə biz tələbələrin rahatlığı üçün hər cür şərait yaradılmışdı. Günün gündüz saatlarında müxtəlif təlimlərdə iştirak edir, bununla da riyazi bilik və bacarıqlarımızın artmasına müvəffəq olurduq. Asudə vaxtlarımızda isə günümüzü müxtəlif intellektual oyun və əyləncələrlə keçirirdik.

Quba Soyqrımı Memorial Kompleksinə ziyarətimiz isə düşünürəm ki, hər birimizin yaddaşında silinməz izlər qoydu. Orada öyrəndiyimiz tarixi faktlar, erməni vəhşilikləri, insanlara verilən dözülməz işgəncələr barədə aldığımız məlumatlar bizi dəhşətə gətirdi. Mən heç vaxt bu kompleksdə olmamışdım. "Qış düşərgəsi" mənim kimi bir çox gəncimizə həm də xalqımızın başına gətirilən faciələrlə bağlı acı həqiqətləri öyrənməyimizə fürsət yaratdı.

### "Düşərgə mənim üçün xoş xatirələrlə yadda qaldı"

*Rüstəm Babazadə (Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İnformasiya texnologiyaları və idarəetmə fakültəsinin IV kurs tələbəsi):*

– Kompüter elmləri ixtisası üzrə təhsil alıram. Düşərgə haqqında məlumatı izlədiyim teleqram kanallarından birində görmüşdüm. Riyaziyyat və texniki ixtisaslarda oxuyan tələbələr üçün həm fərdi inkişaf, həm də maraqlı istirahət imkanı olduğundan qərar verdim ki, mütləq bu layihədə iştirak etməliyəm. Bu, mənim qatıldığım ilk düşərgə idi.

Həm gün ərzində müəllimlərin bizə öyrətdiyi məsələlərlə məşğul olur, həm də asudə vaxtımı maksimum dəyərləndirməyə çalışırdım. Özümlə götürdüyüm bədii kitabımı da boş vaxtlarımda oxuyurdum. Keçdiyimiz təlimlər kifayət qədər keyfiyyətli idi. Öz ixtisaslarını mükəmml bilən təcrübəli müəllimlər bizə bu günlər ərzində nəzəri, eyni zamanda praktiki olaraq çox şey öyrətdilər.– Təlimlərdən əzbərləyib yadda saxladığım bir çox riyazi teoremlərin dayandığı isbatları daha dərindən öyrənə bildim. Üstəlik, riyaziyyatın real həyatda – sənayedə, biznesdə, rəqəmsal texnologiyalarda tətbiqinə dair xeyli məlumat da əldə etdim.

Asudə vaxtlarımızda davamlı olaraq müxtəlif idman oyunları ilə məşğul olurduq, həmçinin müxtəlif intellektual yarışlarda biliyimizi sınayırdıq.

Düşərgə mənim üçün xoş xatirələrlə yadda qaldı. Riyaziyyat sahəsi ilə bağlı bir çox biliklər əldə etməklə yanaşı, gözəl dostlar qazandım. Məncə, hər bir tələbə ən azı 1 dəfə də olsa, bu cür düşərgə təcrübəsindən yararlanmalıdır.

### Dost mühiti, səmimi ortam

*Günel Qarayeva (Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbəsi):*

– SABAH qrupları riyaziyyat müəllimliyi ixtisası üzrə sonuncu kursdayam. Təhsil Nazirliyinin təşəbbüsü və Təhsil İnstitutunun təşkilatçılığı ilə təşkil olunan "Qış düşərgəsi" haqqında elanı görəndə layihənin mütləq parçası olmalıyam, – deyə düşündüm və tərəddüd etmədən qeydiyyatdan keçdim. Bu düşərgə vasitəsilə qazanılacaq yeni biliklər, sosial mühit sayəsində daha da inkişaf edəcəyimə inanırdım və təbii ki, elə düşündüyüm kimi oldu.

Təhsil aldığım müddətdə bir sıra layihələrdə iştirak etmişəm. Bu layihə isə sırf ixtisasım üzrə mənim üçün bir ilk idi. Burada digər universitetlərdə təhsil alan tələbələrlə 9 gün birlikdə öyrəndik, dedik, güldük və ən əsası bir – həmrəy olduq.

9 günlük düşərgə həyatından danışmaqla bitməz. Əyləncəli tanışlıq, komanda oyunları ilə aramızda informasiya mübadiləsi, ən əsası təcrübəli müəllimlərin maraqlı təlimləri vasitəsilə riyazi biliklərimizi daha da möhkəmləndirdik.Yeni və bilmədiyimiz məlumatlar aldıq, təcrübələrə şahid olduq. Quba STEAM Mərkəzi ilə, buradakı müasir avadanlıqlar və şagirdlər tərəfindən hazırlanan texnologiyalarla tanışlıq şəxsən mənim, eləcə də tələbə dostlarım üçün bir yenilik idi. 3D printerlə işləmək fürsətimiz oldu. Düşünürəm ki, STEAM təhsili ilə yaxından tanış olmaq gələcək üçün bir perspektivdir.

Ali riyaziyyata bu düşərgə sayəsində daha fərqli baxış bucağından baxmağı və bir daha praktiki məsələlərin nəzəri biliklərdən üstün olduğunu öyrəndim.

Tələbə olaraq burada iştirak etmək ilk öncə mənə bir dost mühiti, səmimi ortam qazandırdı və baxış bucağımı dəyişərək inkişaf etməyimə böyük təsiri oldu. Onu da özüm üçün bir daha müəyyənləşdirdim ki, həyatda uğur qazanmaq istəyən birinci növbədə özünə inanmalıdır.

Təhsillə bağlı keçirilən bütün layihələri dəstəkləyir və davamlı olmağını arzulayıram. Bu layihədə iştirak etdiyim üçün özümü çox şanslı hiss edir və əziyyəti keçən hər bir kəsə tələbələr adından təşəkkürümü bildirirəm.

### Rəqabətli və maraqlı

*Tofiq Orucov (Bakı Dövlət Universitetinin Mexanika və riyaziyyat fakültəsinin III kurs tələbəsi):*

– İxtisas seçimim riyaziyyat olduğundan bu düşərgəyə qatılmağı düşündüm. Və ilk dəfə idi ki, belə bir layihədə iştirak edirdim. Düşərgədə olmaq mənim üçün öyrənmək baxımından faydalı oldu. Təlimlərimiz çox maraqlı təşkil olunmuşdu. Müəllimlər sıxıcı mühazirələr keçmirdilər, daha rəqabətli və maraqlı öyrənmə mühiti var idi.Yeni həll üsulları, isbatlar, riyaziyyatın tətbiq sahələri, 3D printer və işləmə mexanizmi və digər yeniliklər diqqətimi çəkdi, marağıma səbəb oldu.

Düşərgəyə qatıldığım üçün məmnunam. Düşərgə mənə yeni dostlarla gözəl ünsiyyət, faydalı məlumatlar, təcrübə, riyaziyyatın müxtəlif sahələri üzrə biliklər, iş təklifləri və.s qazandırdı.

Fikrimcə, özünə və biliyinə güvənən istənilən tələbə belə düşərgələrə mütləq qatılmalıdır. Bu, həm də gənclərin həyatlarında yeni bir səhifə aça bilmək qarantıdır.

### Gözəl bir imkan...

Bəli, düşərgənin təşkilində məqsəd tələbələr arasında ali riyaziyyat sahəsinə olan marağın artırılması, riyaziyyatın yeni texnologiyalar və süni intellekt sahəsində tətbiqi dairəsinə dair məlumatların verilməsi və qış tətili dövründə riyazi biliklərinin gücləndirilməsi idi ki, bizcə də təşkilatçılar sonda buna nail olmağı bacardı. "Qış düşərgəsi" öyrənmək, məlumatlanmaq, özünü tanıtmaq, potensialını üzə çıxarmaq üçün tələbələrə gözəl imkanlar verdi. Və bu imkanlar, yaradılan şərait gənclərin ürəyincədir.

**Samirə KƏRİMOVA**


Azərbaycan Respublikası
Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR**

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası | Kafedra müdiri | 1 |
| 2. | Kino-televiziya sənətləri kafedrası | Professor 0,5 ştat vahidi<br>Dosent<br>Baş müəllim 0,5 ştat vahidi | 1<br>1<br>1 |
| 3. | Dizayn və dekorativ-tətbiqi sənət kafedrası | Dosent 0,5 ştat vahidi<br>Baş müəllim | 1<br>1 |
| 4 | Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrası | Dosent 0,5 ştat vahidi | 1 |
| 5 | Ədəbiyyat və dillər kafedrası | Dosent | 1 |
| 6 | Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| 7 | Sosial-siyasi elmlər kafedrası | Dosent | 2 |
| 8 | Dram rejissoru və səhnə plastikası kafedrası | Baş müəllim 0,5 ştat vahidi | 1 |
| 9 | Dram teatrı və kino aktyoru kafedrası | Dosent | 2 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**